

# İstiqlal

*Azərbaycan Xalq Cümhuriyyəti və müstəqil Azərbaycan Respublikasını birləşdirən əbədi İdeal eşqinə!..*

Nurlu yaşın mübarək, yaş tanımaz məlikəm!
Nəhayət, bunca sitəm, qan-qadalərdan sonra,
Bu qədər sınaqlardan, qasırğalardan sonra,
Çox şükür, vüsalına yetişdi yenə ölkəm!
Bu gün artıq çar-naçar gülümsəyir qarşında
Səni iki yaşında oğurlayan namərdlər.
Bu gün artıq ərşdədir çoxu igid yaşında,
Sənin dalınca gedən adı dağ boyda mərdlər!
Yalnız sən göylərə xas ecazkar qüdrətinlə
Zülmətlərə sığmadan zindanları dağıtdın.
Yetmiş illik qeybindən səməndər xislətinlə
Sən yenidən doğuldun, sən yenidən qayıtdın!
Qutsal medalyon kimi köksündə yanır tuğran,
İçində bir şəkillə bir ad var – Azərbaycan!
Sağ olsun gül-çiçəklə ərsəyə gətirənlər,
Var olsun qoruyaraq bu həddə yetirənlər!

Bu gün artıq vətəndə səninlə nəfəs alan
Doqquz milyon uğrunda can verməyə hazırdır,
Bu gün artıq dünyada sənin hüsnünə heyran
Əlli milyon növbədə qan verməyə hazırdır!
Hökm elə bircə dəfə, ey qəlbimin səması,
Son arzunun yolunda birinci qurban olum!
Hökm elə bircə kərə, ey şeirimin siması,
Hüsnünə kəc baxanı gözündən vuran olum!
Füsunkarsan, illah da, can alanda varlığın,
Elə ki, başın üstdə ay-ulduzun sayrışır!
Məftunkarsan, illah da, yellənəndə yaylığın,
Elə ki, al yaşıla, yaşıl göyə qarışır!
Şanlı yaşın mübarək, yaşdan uca bakirəm,
Dik tut başını artıq sən əbədi mənimsən!
Bir də əl uzadanın əllərini kəsməsəm,
Qanım halaldır sənə, eşqimə and içirəm!

*Akif Azalp*

Təqdimat mərasimi gənc muğam ifaçısının məlahətli ifasından sonra Heydər Əliyev guşəsində iştirakçıların xatirə şəkilləri çəkdirmələri ilə sona çatdı.

**Mədəniyyət.AZ**